**Reyhan İsgəndər qızı ƏHMƏDOVA**
Qərbi Kaspi Universiteti, Psixologiya və Sosial iş kafedrasının dosenti, psixol.ü.f.d., Bakı, Azərbaycan
E-mail: reyhan.ahmedova@icloud.com

**Nigar Tofiq qızı ABBASOVA**
Qərbi Kaspi Universiteti, Psixologiya və Sosial iş kafedrasının magistrantı, Bakı, Azərbaycan
E-mail: nigarabbasova2001@gmail.com

# AUTİZMLİ ŞƏXS ANLAYIŞI VƏ SOSİAL - PSİXOLOGİYA

**Xülasə**

Müasir dövürdə aktual məsələlərdən biri fərqliliyin qəbul edilməsi və sosial inklüzivliyin təmin edilməsidir. Bu çərçivədə Autizm spektr pozuntusu olan şəxslərin sosial mühitdə mövqeyi xüsusi əhəmiyyət daşıyır. Məqalənin əsas məqsədi autizmin sosial- psixoloji ədəbiyyatlarda tarixi inkişafını, əsas əlamətlərini, qarşılıqlı münasibətlərdə yaranan çətinliklərini, ailə daxilindəki psixoloji dinamikanı sosial-psixoloji baxımından təhlil etməkdir. Autizmli şəxslərin qarşılıqlı əlaqə prosesində üzləşdikləri çətinliklər, ünsiyyət xarakteristikaları və davranış modelləri təhlil edilir. Eyni zamanda müxtəlif dövürdə müxtəlif cəmiyyətlərin münasibətləri də bu aspektdə nəzərdən keçirilir. Əlavə olaraq cəmiyyətin autizmli şəxslərə olan münasibəti və sosial cəhətdən qəbul olunma prosesində formalaşan stereotiplərin təsiri elmi baxımdan qiymətləndirilir.

**Açar sözlər:** autizm, spektr, ünsiyyət çətinlikləri, stereotiplər, ailədaxili münasibətlər.

**UOT:** 159.98
**DOI:** https://doi.org/10.54414/SDUL6367

## Giriş

Müasir psixologiya və psixiatriya elmlərinin ən aktual və çoxşaxəli tədqiqat istiqamətlərindən biri Autizm spektr pozuntusudur. Autizm termini ilk dəfə tanınmış psixiatr Eugen Bleuler tərəfindən elm aləminə daxil edilmişdir. Sonradan bu termin Leo Kanner və Hans Asperger tərəfindən aparılan araşdırmalar nəticəsində müstəqil sindrom kimi təşəkkül tapıb. Azərbaycan elmi muhitində də bu sahəyə maraq artmış, xüsusilə dünyada autizm diaqnozu qoyulan şəxslərin sayı artdıqca bu konteksdə aparılan tədqiqatlar mühüm töhfələr vermişdir. Azərbaycanda autizm mövzusunda V.M. Rəhimov, N. Quliyeva, A. Talıbova və M. Məmmədovanın elmi işləri bu məsələnin yerli muhitdə öyrənilməsinə təkan vermişdir.

Autizm spektr pozuntusu qısa adıyla desək ASP erkən inkişaf dövründə meydana gələn və əsasən sosial münasibətlərdə çətinlik, qarşılıqlı əlaqə, ünsiyyət bacarıqları və davranış stereotipləri ilə xarakterizə olunan neyroinkişaf pozuntusudur. “Spektr” termini fərqli dərəcələrdə və müxtəlif formalarda özünü göstərir. Autizm konteksində bu termin bəzi fərdlərdə yüngül, bəzilərində daha ağır formada təzahür edir.

Müasir elm aləmində autizm yalnız patoloji fenomen kimi deyil də, neyroçeşidlilik konsepsiyasında fərqli inkişaf modeli kimi öyrənilir. Bu yanaşma isə həmin fərdlərin cəmiyyətə inteqrasiyasına müsbət təsir göstərir. ASP təkcə klinik çərçivədə deyil həm də sosial münasibətlər və ictimai yanaşmalar konteksində geniş araşdırılır.

**Autizm termini və yaranması tarixi.** İnsanlar minilliklər boyu cəmiyyətdə ölümlə mübarizə apararaq, xəstəlik, fəqlilik anlayışlarına müxtəlif istiqamətdən yanaşmışdır [1, s.8]. Çox vaxt homonoidlər, homosapienslərdəki qeyri-kamilliyi izah etməyə çalışmışdır. Və bu konteksdə olan yanaşmalar sehr,

din, mistika, mantika ilə yanaşı zaman-zaman dəyişmiş bəzən müsbət, bəzən mənfi reaksiyalara məruz qalmışdır. Lakin o dövrlər üçün reaksiyaların əksəriyyətinə baxsaq daha çox mənfi aspektdə olduğunu görərik. Təqribi hesablamalara görə 60.000 min il əvvələ aid sübutlar vardır ki, müəyyən məhdudiyyətləri olan şəxsləri çox diqqətlə basdırmışlar. Bu hal Qərb mədəniyyətində "cin tutma" adlandırıldı. Qədim Çin kitabələrində yüksək statuslu şəxslər əqli geriliyi olan şəxsləri "qorxaq doğulmuş uşaq" adlandırırdılar. Qədim Spartada isə doğulduqdan sonra diqqətlə yoxlanan körpələrdə müəyyən məhdudiyyətlər və fərqliliklər aşkar olunurdusa, onu Yunanıstanın Pelopennes bölgəsində yerləşən məhşur Taygetus dağında olan qayalıqlara atırdılar. Afinada isə müəyyən həddi buluğa çatan şəxslər özünü qulluq etməkdə çətinlik çəkirdilərsə onlara ölüm hökmünə belə icazə verilirdi. XVIII əsr Avropada fərqliliklərə olan şəxsləri müxtəlif qeyri-etik adlarla çağırırdılar. Göründüyü kimi tarixən fərqlilikləri olan şəxslər cəmiyyət tərəfindən ciddi sosial-psixoloji təyziqlərə məruz qalmışdır.

"Autizm" termininin mənşəyinə baxanda görərik ki, söz ilk dəfə tibbi məqsədlər üçün istifadə edilib [3, s.83]. Autizm sözünün mənası öz-özünə aid olan deməkdir. Bir az açılışına nəzər salsaq insanın daha çox öz daxilinə yönəlməsi deməkdir. Termini 20-ci əsrin əvvəllərində Paul Oygen Bleyler ilk dəfə istifadə edib [6, s.108]. Lakin sözün mənası illər keçdikcə və cəmiyyət dəyişdikcə dəyişiliyə məruz qalıb. 1900-cu illərin əvvələrində İsveçrəli psixiatr Oygen şizofreniya ilə bağlı tədqiqat aparmağa başladı. İlk dəfə o 1908-ci ildə Berlində verdiyi mühazirələrinin birində bu terminin vəziyyətini şərh edib. O, əldə etdiyi bu məlumatları 1911-ci ildə dərc etdirib və burada autizmlə bağlı olan xüsusiyyətləri "reallıqdan uzaqlaşmaq, daxili həyatın mütləq dominatlığı kimi" verib. Bu zaman Oygen autizmi uşaqlarda olan şizofreniyanın simptomu kimi şərh edib. Amma hal-hazırda əldə edilən tədqiqatlar göstərir ki, autizm uşaqlıq şizofreniyası ilə eyni deyildir. Bu dövrlərdə isə autizm uşaqlara ümumiyyətlə uşaqlıq psixozu və yaxud uşaqlıq şizofreniyası diaqnozu kimi qoyulurdu.

Autizm haqqında rəsmi sənədlər Hyu Bleyr haqqındadır. O, 18-ci əsrdə Şotlandıyada yaşayırdı və müasir dövrdə bir çox tədqiqatçılar tərəfindən onun davranış xüsusiyyətlərini autizm spektri ilə əlaqələndirirlər. Onunla bağlı diqqət çəkən məqamlar müasir dövrdəki autizmlə bağlı xüsusiyyətlərlə üst-üstə düşür. Əsas məqamlar bunlar idi: (1) sosial ünsiyyətlərdə çətinlik; (2) nitqi və davranışları qeyri-adi hesab olunurdu; (3) gündəlik tələbatlarını funksional olaraq yerinə yetirməkdə çətinlik; (4) təkrarlanan fəaliyyətlərə həddən artıq bağlılıq [8, s.39].

Vəziyyətin məhşur olmasında səbəb, evliliyi ilə bağlı məhkəmə işi olmuşdur. Bu iş zehni qabiliyyət, hüquqi səlahiyyət və cəmiyyət tərəfindən necə başa düşüldüyü barədə erkən nümunə sayılır. Nikah məsələsində onun ailəsi nikaha razılıq vermək üçün yetərli olmadığını düşünürdü. Və bu da tarixdə "erkən neyrofərqlilik" nümunəsi sayılır.

Bundan sonra haqqında bəhs edəcəyəmiz şəxs Rusiya İmperiyasında doğulan Qrunya Suxarevadır. O, tanınmış uşaq psixiatrı olmuşdur. Bu gün bildiyimiz autizm haqqında tədqiqat aparan şəxslərdən biri kimi tanınır. Qrunyanın araşdırmaları müasir autizm diaqnostikası ilə oxşarlıq təşkil edirdi. O, 1925-ci ildə tədqiqat aparmış və Kiyevdə sanatoriya məktəbində uşaqların əldə etdiyi nailiyyətlərə diqqət edərək, autizmə xas olan xüsusiyyətləri empatik və simpatik tonda təsvir etmişdir. Qrunya hal-hazırda autizm deyəcəyimiz 5 qız və 6 oğlana baxırdı. Məsələn: 5 yaşında öz-özünə oxumağı öyrənən uşaq, istedadlı bir skripkaçı olan, lakin akademik və sosial baxımından çətinlik çəkən uşaq, riyazi hesablamalrı əla olan, ancaq hərfləri oxuya və tanıya bilməyən başqa bir uşaq. Qrunya həmin uşaqların ortaq xüsusiyyətləri kimi bunu qeyd edirdiki, onlar təkliyə üstünlük verirlər, həmyaşıdlarıyla ünsiyyətdən qaçıqdılar, emosiyaları dərin şəkildə izah etməkdə çətinlik çəkirdi, təkrarlanan davranışlar var idi, işığa və səsə reaksiya verirdilər.

Və nəhayət elm aləmində autizm anlayışından danışan zaman ilk ağla gələn şəxs Leo Kannerdən bəhs edəcəyik. Leo 1824-cü ildə Ukranyada anadan olmuşdur və 1924-cü ildə ABŞ-a köçdü. O, burada psixiatriya və

pediatriya tədqiqatlarına başladı. 1938-ci ildə o, autizm haqqında yenilik gətirərək, autizm və şizofreniya anlayışlarına aydınlıq gətirdi [1, s.8]. Bu zaman Kanner 11 uşaqla işləyirdi və autizmin əsaslarını təşkil edən "Kanner Sindromu" diaqnozunu qoymaq üçün çalışırdı [6, s.108]. Nəticədə Kanner 1943-cü ildə tədqiqatlarını çap etdirdi. Kannerin tədqiq etdiyi uşaqlar tək qalanda xoşbəxt idilər, təkrarlanan davranışları var idi, təkrarlanan fəaliyyətlərə sıx bağlı idilər. Kanner eyni zamanda öyrəndiyi uşaqların nitqində gecikmələr olduğunu, müəyyən söz və ifadələrin təkrar edildiyini, sosial münasibətlərdə çətinliklər yaşadığını tədqiq edirdi [6, s.108].

1940-cı ildə Hans Asperger autizmlə bağlı tədqiqatlara başladı [3, s.83]. Hans uşaq psixoloqu olaraq çalışmışdır və uşaqlardakı fərqli davranışları hər zaman müşahidə edirdi. Asperger tarix boyunca öyrənmə çətinliyi olmayan autizmli şəxslər üçün qoyulan diaqnoz olnmuşdur. 1944-cü ildə Hans Asperger sosial işarələri izləyə bilməyən, dostluq münasibətlərində çətinlik çəkən, xüsusi və yaşıdlarından fərqli maraqları olan, motor bacarıqları aşağı olan uşaqları müşahidə etmişdir. Lakin Asperger 2013-dən bəri rəsmi diaqnostik termin kimi istifadə edilmir.

Eyni zamanda 60-cı illərin sonu 70-ci illərin əvvələri autizmə çoxlu tərif, tədqiqat və diqqət göstərilməyə başlanıldı. Lakin bu aparılan tədqiqatların çoxu gözlənilməz oldu. Bu aparılan qeyri-dəqiq tədqiqatlardan birinə misal olaraq, Bruno Bettelheym göstərə bilərik. O, autizmin sevgisiz və soyuq analardan qaynaqlandığına inanırdı [1, s.11]. Və bu vəziyyəti "soyuducu analar" adlandırırdı. Buna Bernand Rimland etiraz etdi. 1964-cu ildə nəşr etdiyi əsər "Körpə autizmi: sindrom və onun neyron davranış nəzəriyyəsinə təsiri" autizm mövzusunda tədqiqatların istiqamətləndirilməsinə kömək etdi.

XX əsrin 60-70-ci illərində autizmin müalicəsində LSD, elektrik şoku, ağrı və cəza kimi üsullar xüsusi yer tuturdu. XX-əsrin ikinci yarısından sonra autizmin diaqnostik kriteriyaları standart hal aldı və XBT-də təsbitedildi. 1980-ci ildə əsas əlamətlər bunlar idi:

- Sosial qarşılıqlı münasibətlərin qurulmasında çətinlik;
- Gecikmiş dil inkişafı;
- Təkrarlanan hərəkətlər;
- Təkrarlanan fəaliyyətlərə bağlılıq;
- Qeyri-verbal ünsiyyətdən istifadə etməmək və yaxud az istifadə etmək [7, s.11].

Autizm üçün müasit terapiyaların başlanğıcı elə 1980 və 90-cı illər hesab edilir. Bu zaman müsbət mükafatlanma, nəzarətli öyrənmə terapiyalarına yönəlmiş metodlardan istifadə edilirdi. 1987-ci ildə "körpə autizmi", "autizm pozuntusu" olaraq genişləndirildi və diaqnozu dəqiqləşdirməyə kömək edəcək diaqnostik meyarlar yaradılmağa başlanıldı [8, s. 102]. Bu zaman İvar Lovaas intensiv davranış terapiyasının uşaqlarda autizmin yaxşılaşdırmağına kömək etməsilə bağlı ilk tədqiqatı dərc etdi. Endryu Ueykfild, tibb elməri doktoru 1998-ci ildə "The Lancet" jurnalında MMR (qızılca, parotit, məxmərək) peyvəndi ilə autistik enterokolit adlandırılan xəstəlik arasında əlaqə olduğunu qeyd etdi və sonralar etibarsız hesab olundu. Pol Offit tez-tez və aydın şəkildə qeyd edirdi ki, autizm və peyvəndlərin heç biri əlaqəsi yoxdur.

1991-ci ildə ABŞ autizmlə bağlı öyrənilən məsələləri genişləndirməyə başladı. Autizmi xüsusi təhsil kateqoriyasına aid etdi və dövlət təhsil sistemində autzim diaqnozu qoyulan şəxslərə xüsusi xidmətlər təklif etdi. 1980-1990-ci illər o qədər də müsbət irəliləyişlər əldə edilmədi. 1998-ci ildə autizmin yaranmasına səbəb olaraq, qızılca peyvəndinin səbəb olduğu göstərildi. Tədqiqat sonralar təkzib edildi, qəbul edilməsə belə müasir dövrə qədər qarışıqlığa səbəb oldu.

Autizm diaqnozu "autizm" terminin yaradılmasından tutmuş, müasir elmi diaqnoz olmasına qədər olan geniş bir dövrü əhatə edir. Hal-hazırda dünyada hər bir 31 nəfərdən 1-də autizm aşkar olunur. Eyni zamanda hər il 2 aprel tarixi dünyada autizm günü kimi qeyd olunur.

**Autizmli şəxs anlayışı və ailədaxili münasibətlərin xüsusiyyətləri.** Autizm anadangəlmə yaranan neyroinkişaf pozuntusudur [5, s.185]. Autizm spektr pozuntusu

(ASP) diaqnozu uşaq və yeniyetmə psixi sağlamlıq mütəxəssisləri tərəfindən klinik müşahidə və müsahibə əsasında qoyulur. ASP-ni müəyyən etmək üçün spesifik laborator və görüntüləmə göstəriciləri hələki mövcud deyil [1, s.11]. Eyni zamanda autizmin yaranma səbəbi də hələki elm tərəfindən tam tədqiq edilməyib. Mövzuyla bağlı müəyyən tədqiqat-lar aparılsa da, çoxlu nəzəriyyələr irəli sürülsə də elm paradiqmasında yekun fikir irəli sürülməyib [1, s.12].

Autizm oğlanlarda qızlara nisbətən daha çox rast gəlinir [5, s.183]. ASP-li şəxslərin qarşılaşdığı çətinliklər, xüsusən erkən yaş müddətində aydın nəzərə çarpır. Nitq inkişa-fında gerilik, sosial münasibətlərdəki çətin-liklər, inteqrasiya problemləri və rutin davranışlar uşağın inkişafını məhdudlaşdıra bilir. Aparılan tədqiqatlar göstərir ki, erkən müdaxilə və hər uşağa uyğunlaşdırılan reabilitasiya şəxsin həyatının müxtəlif istiqamətində inkişafına şərait yaradır [3, s.86]. Ünsiyyət, sosiallaşma, cəmiyyətə inteqrasiya autizmli şəxslərin həyatında çətinlik yaradan başlıca səbəblərdən biridir. Dəstəklənən erkən müdaxilə, xüsusi təhsil proqramları, intensiv təlim fərdin inkişafında birbaşa effektiv rol oynayır. Əsas sosial-psixoloji xüsusiyyətlərə misal olaraq, sosial münasibətlər, adaptasiya, emosional tənzimləməni göstərə bilərik.

Sosial müasibətlərdəki problemlər:

- Göz kontaktı qurmaqda çətinlik;
- Sosial qarşılıqlı diqqətin məhdud olması;
- Başqalarının davranışlarına qarşı soyuqluq;
- Öz-özüylə daha çox vaxt keçirtmək;
- Xəyali oyunlar oynamaq;
- Dil və münasibətlərdəki çətinliklər;
- Exalaliya;
- Özlüyündən söhbət başlada bilməmək;
- Əvəzliklərin yerində istifadə edilməməsi;
- Əşyaları fərqli şəkillərdə istifadə etmək;
- Əşyalara fərqli hisslər yükləmək;
- Təkrarlanan fəaliyyətlərə həddən artıq bağlılıq [7, s.14].

Autizm diaqnozu olan şəxslərin sosial-psixoloji xüsusiyyətləri müxtəlif səviyyələrdə özünü göstərir. Bu ən çox onların sosial qarşılıqlı əlaqə, ünsiyyət və davranışlarında müşahidə edilir.

Autizmli şəxslərdə ilk diqqəti çəkən məqamlardan biri də sosial əlaqələrdə yaşanan çətinliklərdir. Bu da göz təmasının qurulmasında, sosial siqnalları anlamaqda və qarşıdakı şəxsin emosional vəziyyətini düzgün interpretasiya edə bilməməsi zamanı xüsusi nəzərə çarpır. Sosial münasibətlərə marağın az olması ən çox iki halda müşahidə edilir: bəziləri ünsiyyətə qismən maraq göstərir, bəziləri ünsiyyətdən imtina edir.Ünsiyyət sferasında müxtəlif çətinliklər nəzərə çarpır. Bir çox autizmli şəxslərdə nitq inkişafı gecikir, bir çoxunda isə nitq mövcud olsada dialoq qurmaq, qarşılıqlı söhbəti davam etdirmək və sosial konteksə uyğun ünsiyyət qurmaq çətin olur. Bunun yanı sıra jest, mimika və bədən dili kimi qeyri-verbal ünsiyyət vasitələrindən istifadə məhdud ola bilər. Autizm diaqnozu qoyulan şəxslərin ortaq diqqət bacarığında məhdudiyyətlər müşahidə edilir. Belə ki, onlar bir obyekt və ya hadisəyə başqa şəxs ilə birlikdə fokuslanmaqda və bu diqqəti paylaşmaqda çətinlik çəkirlər [7, s.13]. Davranışlarında özünü göstərən xüsusiyyətlər isə təkrarlayıcı və stereotip hərəkətlərdir. Bunlara əl çırpmaq, eyni hərəkətləri təkrar etmək, öz ətrafında fırlanmaq, səslərə və qoxulara həssaslığı misal göstərə bilərik. Gündəlik rejimlərin dəyişilməsi bəzi autizmli şəxsləri ciddi şəkildə narahat edə bilər.

Bu qeyd olunan xüsusiyyətlər eyni zamanda autizmli şəxslərin ailədaxili münasi-bətlərində də özünü göstərir. Və beləliklə ailədə psixoloji iqlimə təsir göstərir. Ailə bəşəriyyətin bioloji olaraq davamlılığını təmin edən, şəxsin cəmiyyətə inteqrasiyasını təmin ilkin sosial qrupdur [1, s.39]. O eyni zamanda iqtisadi, hüquqi, siyasi, sosial aspektləri özündə birləşdirən institutdur. Uşağın ailəyə gəlişi ilə ailə yeni bir dövrə qədəm qoyur. Uşaq dünyaya gətirmə qərarı ailə üçün doğumdan bir sonrakı mərhələlərə qədər olan böyük bir sistemi əhatə edir [1, s.38]

İlk növbədə autizmli şəxsin ailəsinin, yaxınlarının və qohumların şəxsdəki fərqli-likləri hiss etməsi ilə ilkin mərhələ başlanır [7, s.25]. Bu mərhələlədə vəziyyətlə bağlı iki fərqli situasiya yaranır: vəziyyəti qəbul edib,

müdaxiləyə başlayan valideynlər və qəbul etməkdə çətinlik çəkən valideynlər. Qəbul etməkdə çətinlik çəkən valideynlər adətən ətrafdan çoxlu şərhlər alan zaman qəzəblənə bilərlər. Eyni zamanda hər iki valideyn tipində ilkin mərhələdə valideynlik rolunu düzgün yerinə yetirməməklə bağlı günahkarlıq hissi yarana bilir. Və burda valideynin düzgün bir diaqnoz qoyan mütəxəssislə tanış olması çox böyük rol oynayır [8, s.92]. Beləliklə, ikinci mərhələ başlamış olur. İkinci mərhələni diaqnoz qoymaq mərhələsidə adlandıra bilərik. Diaqnoz mərhələsinin ən vacib mərhələsi ailəyə təqdim olunan görüşlərdir. Bu görüşmədə valideynlərin hər ikisinin iştirak etməsi vacib şərtdir. Təqdim olunan məlumatların düzgün mənimsənilməsində birgə iştirakın rolu böyükdür və eyni zamanda bir-birinə emosional dəstək olmaq üçün şərait yaradır. Tək valideynli ailələrdə isə bu görüşlərdə yaxın şəxslərdən birinin qatılması əhəmiyyətli rol oynayır. Diaqnoz qoyulma mərhələsi sosial-psixoloji aspektdən yalnız informasiya ötürülməsi deyil, sosial-qarşılıqlı əlaqə, emosional paylaşmaq və dəstək mexanizmlərinin aktivləşdiyi bir mərhələdir. Diaqnoz qoyulduqdan sonra ailə üzvlərində kədər, depressiya, qəzəb və bir çox qarışıq emosional reaksiyalar özünü göstərə bilər. Bu konteksdə sosial dəstək, psixoloji məsləhət və maarifləndirici müdaxilələr ailənin həyatı üçün vacibdir. Sosial-psixoloji yanaşmalara görə, düzgün qoyulmuş diaqnoz yalnız tibbi bir informasiya kimi deyil, ailə üzvlərinin bir-biri arasında, uşağa, onun davranışlarına və ona göstərilən davranışa sosial qavrayışı formalaşdıran bir çərçivədir. Digər mərhələ isə uşağın təlim muhitinə başlaması və valideynində bu təlimin əsas hissəsinə çevirlməsidir. Təhsilin effektivliyinin əsas amili ailənin intensiv olaraq, təlim prosesində aktiv və davaml iştirakıdır [2, s.235]. Valideyn uşağı müşahidə etməli onun güclü və zəif tərəflərini əhatəli şəkildə mütəxəssisə məlumat verməlidir. Mütəxəssislərin apardığı qiymətləndirmələrin böyük qismi ailənin dəqiq müşahidələrdən asılıdır. Təlim prosesində əsas məqsəd həm uşağın öyrənmə prosesini sürətləndirmək, həm onun maksimum səviyyədə sosiallaşmasına şərait yaratmaq və ailənin hər bir üzvünü bu prosesin aktiv iştirakçısına çevirməkdir. Valideynlər və uşaqla birgə yaşayan bütün ailə üzvləri uşağın davranışları, ehtiyacları, tələbatları haqqında dəqiq məlumat sahibi olmalıdır. Və mütəxəssislərin apardığı təlim şəraitindəki tapşırıqları evə daşımalı və evdədə həmin tapşırıqları yerinə yetirilməlidir. Eyni zamanda psixoloji müayinələri valideynlərin iştirakı keçirmək zəruridir [4, s.70].

Eyni zamanda bu mərhələlərin tədqiq edilməsində digər mühüm modellər öyrənilir:

(1) Mərhələ modeli-ailə bütün fərqli situasiyalardan keçərək, qəbul və uyğunlaşma mərhələsinə gəldiyini zənn edir;

(2) Şok mərhələsi-övladının fərqli olduğunu bilən hər bir valideyndə bir-birindən fərqli reaksiyalar özünü göstərir;

(3) İnkar etmək-bəziləri uşaqdakı fərqliliyi inkar edir, bəziləri uşağı inkar edir. Bəzilərində "uşağın halı necə olacaq" sualı bütün gün beynində dolaşır;

(4) Qəzəb və depressiya - bu mərhələdə valideyn uşağa, özünə və onu müalicə edə bilməyən mütəxəssislərə güclü qəzəb hissi duyurlar. Qəzəbin ən sonu depressiyaya çevrilir;

(5) Günahkarlıq hissi - bu valideynin öhtəsindən gəldiyi ən çətin dövürdür və günahkarlığın səbəbini özündə, keçmişdə etdiyi hər hansısa bir səhvində olduğunu düşünür;

(6) Utanc - uşağın cəmiyyət tərəfindən birmənalı qarşılanmaması, valideynin müxtəlif sosial muhitlərdə qarşılaşdığı çətinliklərdə keçidiyi hisləri aid edirik;

(7) Qarşılıqlı razılaşma - uşaqla bağlı gələcək planlar və işlər;

(8) Qəbul etmə - bu mərhələni həyatı boyunca edə bilməyən valideynlər və qəbul edib, uşaqla birgə bir ömrü daha rahat sosial-psixoloji iqlimdə yaşayan valideynlər var [1, s.40].

ASP olan uşağa sahib olmaq ailədə struktur və funksional dəyişikliklər yaratan psixososial amildir. Ailədaxili rolların təkrar bölüşdürülməsi, qarşılıqlı münasibətlərin dəyişməsi ilə xarakterizə oluna bilər. Valideynlərin bir-birinə emosional və instrumental dəstək göstərməsi adaptasiya problemini asanlaşdırır. Eyni zamanda

irəlləyən yaş dönəmlərində ittihamların olmaması, açıq kommunikasiya və birgə keçirilən dəyərli vaxt ailədaxili münasibətlərin sağlamlğını qoruyur. Problemləri fərdi səviyyədə həll edilmədiyi münasibətlərdə isə peşəkar psixoloji dəstək almaq, sosial bir-birinə uyğunlaşmaq kimi effektiv nəticəyə səbəb olur [2, s.235].

Ailədə digər əsas qrup autizmli şəsxlərin bacı və qardaşlarıdır. Bu mərhələdə ailələr uşaq lar arasında bölgünü düzgün qurmalıdır. Sosial müqayisə, ədalətlilik qavrayışı, empatiyanın gücləndirilməsi üzərində valideynlər işləməlidir [8, s.72]. Bu baxımdan bacı-qardaşlar valideyn diqqətinin qeyri-bərabər paylaşdırılması nəticəsində qəzəb, qısqanclıq, utanc və gələcək narahatlılğı ilə qarşılaşa bilərlər. Buna görə də evdə açıq ünsiyyət muhiti yaradılmalı, onlardakı qaranlıq qalan suallara cavab verilməli və emosiyaların ifadəsinə təşviq edilməlidir. Geniş ailə üzvləri, xüsusilə nənə və babalarla birgə yaşayan ailələrdə oxşar reaksiyalar yaşayır. Nəsillərarası fərqlərə nəzər yetirsək görərik ki, onlar autizmi fərqli şəkildə anlayır və hətta bəzən anlamaqda çətinlik çəkə bilirlər. Bu situasiyada valideynlərin rolu onları maarifləndirməkdir.

**Nəticə**

Autizmin inkişaf tarixi sübut edir ki, bu diaqnozun elm aləmində izahı XX əsrin ortalarından bu yana daha sistemli hal almışdır. İlkin dönəmlərdə bir çox təsnifatlar qeyri-dəqiq idi və müxtəlif psixi pozuntularla qarışdırılırdı. Autizm müasir elmi yanaşmalarda neyro-inkişaf pozuntusu qrupuna aid edilib və burada klinik, sosial-psixoloji və davranış xarakteristikası daha dəqiq müəyyənləşdirilib.

Autizm təkcə tibb aləmində tibbi diaqnoz kimi deyil, eyni zamanda sosial və pedaqoji konteksdə şəxsin fərdi xüsusiyyətlərini özündə ehtiva edən bir termin kimi formalaşıb. Belə yanaşmanın olması autizmli şəxslərin ünsiyyət və adaptasiya sahələrində fərqli profillərə sahib olduğunu qəbul edir. Bununla yanaşı autizmli şəxslərin fərdiləşdirilmiş təhsil və reabilitasiya proqramlarının vacibliyini ön plana çəkir və ailədaxili münasibətlərinin bu yerdə həll edici rol oynadığını göstərir. Bu konteksdə ailə təkcə dəstək göstərən struktur deyil, əhəmiyyətli müalicəvi və inkişafetdirici prosesin aktiv iştirakçısı kimi öz yerini tapır. Tarixi inkişaf prosesində hal-hazırda bu yanaşmanın olması autizmli şəxslərin cəmiyyətə inteqrasiyasında ailə, təhsil müəssisələri və mütəxəssislərin birgə daha effektiv nəticə almasına şərait yaradır.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Quliyeva N. Azərbaycanda autizm problemləri və korreksiya üsulları. Bakı, 2016, 39 s.
2. Məmmədova M. Autizm sindromlu uşaqların davranış analizi, aparılan araşdırmalar. Quba, 2025.
3. Mamedova T. Autizm anlayışı və onun elmi baxımından izahı. Türkiyə: Selçuk Universiteti, 2026, 83 s.
4. Rəhmanov V. Autizm, atustik pozuntular, kömək göstərən metodlar, lehinə və əleyhinə. Bakı: Qanun, 2020.
5. Şəfiyeva E. Anomal inkişafın psixologiyası. Bakı, 2012.
6. Talıbova A. Autizm sindromuna ümumi psixoloji xarakteristika. Qərbi Kaspi Universiteti: Elmi xəbərlər jurnalının humanitar elmlər seriyası, 2024;4:108-111.
7. Yücesoy Ş.Ö. Otizm spektrum bozukluğu. Türkiyə. 2015, 66 s.
8. Frith U. Autism a very shot introduction. England, Oxford Press, 2008, 110 s

**Reyhan Isgander AHMEDOVA**
Western Caspian University, Associate Professor of the Department of Psychology and Social Work, Ph.D. in Psychology, Baku, Azerbaijan

**Nigar Tofig ABBASOVA**
Master`s Student of the Department of Psychology and Social Work, Western Caspian University, Baku, Azerbaijan

## AUTISTIC PERSON CONCEPT AND SOCIAL PSYCHOLOGY

**Summary**

The history of autism development proves that the explanation of this diagnosis in the scientific world has become more systematic since the middle of the 20th century. In the early stages, many classifications were imprecise and were confused with various mental disorders. In modern scientific approaches, autism is attributed to the group of neurodevelopmental disorders, where clinical, socio-psychological and behavioral characteristics are more precisely defined. Autism has been formed not only as a medical diagnosis in the medical world, but also as a term that includes the individual characteristics of a person in a social and pedagogical context. Such an approach recognizes that individuals with autism have different profiles in the areas of communication and adaptation. At the same time, it highlights the importance of individualized education and rehabilitation programs for individuals with autism and shows that family relationships play a decisive role in this. In this context, the family finds its place not only as a support structure, but also as an active participant in an important therapeutic and developmental process. The presence of this approach in the historical development process currently creates conditions for the family, educational institutions and specialists to achieve more effective results in the integration of individuals with autism into society.

**Keywords:** autism, spectrum, communication difficulties, stereotypes, family relationships.

**Рейхан Искендер АХМЕДОВА**
Западно-Каспийский Университет, Доцент кафедры психологии и социальной работы, кандидат философских наук по психологии, Баку, Азербайджан

**Нигар Тофиг АББАСОВА**
Западно-Каспийский Университет, магистрант кафедры психологии и социальной работы, Баку, Азербайджан

## АУТИСТИЧЕСКАЯ ЛИЧНОСТЬ И КОНЦЕПЦИЯ СОЦИАЛЬНОЙ ПСИХОЛОГИИ

**Резюме**

История развития аутизма доказывает, что научное объяснение этого диагноза приобрело систематический характер с середины 20 века. На начальных этапах многие определения были неточными и их путали с различными психическими расстройствами. В современном научном подходе аутизм был отнесён к группе расстройств нейропсихического развития, где его клинические, социально-психологические и поведенческие характеристики были определены более чётко. Аутизм сформировался в науке не только как медицинский диагноз, но и как термин, который объединяет в себе в социальном и педагогическом контекстах характеристики личности. Существование таких подходов признаёт наличие разных профилей для общения и адаптации для людей с аутизмом. Помимо этого, это показывает важность индивидуального обучения и реабилитационных программ, а также решающую роль внутрисемейных отношений. В этом контексте семья это - не только поддерживающая структура, но также активный участник терапевтического и развивающего процесса. Наличие такого подхода в процессе исторического развития создает условия для того, чтобы семьи, образовательные учреждения и специалисты могли совместно достигать более эффективных результатов в интеграции лиц с аутизмом в общество.

**Ключевые слова:** аутизм, расстройства аутистического спектра, трудности в общении, стереотипы, семейные отношения

**Daxil olub:** 14.05.2026